

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 21 (20.922)

*4 fevral 2014-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 3-də Bakının "28 May" küçəsində dünya şöhrətli bəstəkar Qara Qarayevin xatirəsinə ucaldılmış abidənin açılışında iştirak etmişlər.

Prezident İlham Əliyevə məlumat verildi ki, hündürlüyü 3 metr olan, qranitdən hazırlanmış abidənin müəllifi Xalq rəssamı Fazil Nəcəfovdur. Abidənin ətrafında geniş abadlıq işləri aparılmışdır.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Qara Qarayevin tələbəsi, Xalq artisti, bəstəkar Arif Məlikov Qara Qarayevin Azərbaycan musiqisinin inkişafındakı xidmətlərindən danışdılar, xatirələrini bölüşdülər, Azərbaycan musiqi sənətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür etdilər.

Görkəmli bəstəkarın oğlu, Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru, bəstəkar Fərəc Qarayev çıxış edərək atasının xatirəsinə ucaldılmış abidəyə görə ailələri adından minnətdarlığını bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 3 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında gömrük işinin inkişaf etdirilməsində xidmətlərinə və gömrük orqanlarında səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin bir qrup əməkdaşı təltif edilmişdir:Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da vardır.

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə:**

Məmmədov Asəf Səttar oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə:**

Eyvazov Emin Həsən oğlu

Mehbalıyev Əbülfət Müslüm oğlu

# Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, Gənclər Günü qeyd olunmuşdur

Fevralın 1-də Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, Gənclər Günü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gənclər Mərkəzinin açılışını bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.



Bildirilmişdir ki, 4 mərtəbədən ibarət olan Gənclər Mərkəzində elektron lövhəli 3 linqafon sinfi, kompüter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe vardır.

Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilmiş, 104 kompüter dəsti quraşdırılmış, mərkəzi server sistemi və daxili şəbəkə yaradılmış, kompüterlərin hər birinin internetə çıxışı təmin edilmişdir. Mərkəzdə xarici dil kurslarının tədrisi üçün 3 linqafon sinfi yaradılmışdır. Siniflərdə 58 kompüter və 3 elektron lövhə quraşdırılmışdır. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri, həm də praktik olaraq düzgün tələffüz vərdişlərinə yiyələnə biləcəklər.

Mərkəzin elektron kitabxanasının bazasında minə yaxın ədəbiyyat vardır. Kitabxanada 11 kompüter qoyulmuş, kitabları elektron formata çevirən surətköçürmə aparatı quraşdırılmışdır. Sürətli internetlə və xüsusi proqram təminatı ilə təchiz olunmuş kitabxanada gənclər eyni zamanda ölkəmizin digər elektron kitabxanalarının fondundakı ədəbiyyatlarla tanış ola biləcəklər. Binada gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların intellektual səviyyələrinin artırılması da nəzərə alınmış, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün intellektual zal istifadəyə verilmişdir. Zalda proyektor, səsgücləndirici avadanlıqlar və işıqlandırma sistemi quraşdırılmış, televiziya çəkilişlərinin aparılması üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri "Xəmsə" intellektual oyununda yarışan komandaların nümunəvi çıxışını izləmişdir.

Tir otağında pnevmatik tüfəng və tapançadan atəş açmaq mümkündür. Altızolaqlı tirdə gənclər idmanın atıcılıq növünə daha yaxşı yiyələnmək imkanı əldə edəcəklər. Oyun zallarında yaradılan şərait isə gənclərin stolüstü idman növləri ilə məşğul olmalarına imkan verəcəkdir. Binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu üçün 5 iş otağı ayrılmış, lazımi iş şəraiti yaradılmış və fonda xidməti avtomobil verilmişdir.

Bina ilə tanışlıqdan sonra 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin 1997-ci il 1 fevral tarixli Sərəncamı ilə hər il fevralın 2-nin Azərbaycanda "Gənclər Günü" kimi qeyd olunduğunu bildirmiş, belə bir əlamətdar gündə Naxçıvanda Gənclər Mərkəzinin istifadəyə verilməsi və Gənclər Günü münasibətilə muxtar respublikanın bütün gənclərini, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və bölmələrində xidmət edən əsgərlərimizi, gənc zabitləri, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını təbrik edərək demişdir: "Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi rəhbərimiz sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamış, Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılmışdır. Bu gün ölkəmizdə gənclərlə iş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu və 20-yə yaxın normativ-hüquqi aktla tənzimlənir. Ötən dövrdə bu sahənin inkişafı ilə bağlı 5 dövlət proqramı qəbul edilmişdir.

Qeyd olunanlar bir daha göstərir ki, Azərbaycanda gənclərlə bağlı iş birinci dərəcəli məsələlər sırasındadır. İntellektli və vətənpərvər gənclərin yetişməsinə, gənclərin sosial problemlərinin həllinə, bu sahədə müasir infrastrukturun yaradılmasına xüsusi diqqət yetirilir. Bunun bəhrəsi göz qabağındadır. Artıq gənclərimiz diplomatiya, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə ölkəmizi dünyada layiqincə təmsil edirlər".

Ali Məclisin Sədri demişdir: "Müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə edilmişdir. Gənclərin yaradıcılıq potensialının inkişafı üzrə dövlət proqramı qəbul olunmuş, gənc istedadların "Qızıl kitabı" təsis edilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yaradılmışdır. Son illər muxtar respublikada 220-yə yaxın səhiyyə müəssisəsi, 200-dən çox ümumtəhsil məktəbi, 17 uşaq bağçası və 18 uşaq musiqi məktəbi üçün binalar, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların idmanla məşğul olmalarını təmin etmək məqsədilə olimpiya-idman kompleksləri, üzgüçülük mərkəzləri, şahmat və digər idman növləri üzrə məktəblər, "Gənclik" Mərkəzi istifadəyə verilmişdir".



Qeyd olunmuşdur ki, gənclərin elmi potensialının formalaşdırılması, eləcə də onların mütaliə vərdişlərinin və dünyagörüşünün artırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır. Təhsil sisteminin informasiya texnologiyaları ilə təminatı istiqamətində ardıcıl tədbirlər görülmüş, muxtar respublikanın ümumtəhsil məktəblərində 3409 kompüter dəsti və 551 elektron lövhə quraşdırılmışdır. Təhsil müəssisələrindəki kompüterlərin 84 faizinin internetə çıxışı təmin edilmiş, istifadəyə verilən bütün məktəblərdə idman zalları, şahmatın tədrisi üçün nümunəvi şərait yaradılmışdır. Bütün bunlar o məqsədə xidmət edir ki, gənclərimiz biliklərə dərindən yiyələnmək imkanı qazansınlar, fiziki və mənəvi cəhətdən sağlam böyüsünlər və layiqli vətəndaş kimi yetişsinlər.

Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi işinin və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında əlavə fəaliyyət sahəsi açmışdır.

*Ardı 2-ci səhifədə*





Bizim üçün xoşdur ki, muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar. Ali Məclisin Sədri muxtar respublikada dərsdən və ya işdən kənar fəaliyyətlərini bu istiqamətdə quran, sosial şəbəkələrdən məqsədəuyğun istifadə edən, Azərbaycan həqiqətlərini müdafiə və təbliğ edən gənclərə təşəkkürünü bildirmişdir.

"Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki, müharibə şəraitində ola-ola, Naxçıvan kimi ikinci bir muxtar qurum tapmaq çətindir ki, blokada şəraitində yaşaya-yaşaya gəncliyin problemləri ilə bu qədər yaxından məşğul olsun", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün yer üzündə xalqlar var ki, əhalinin statistikasında gənclərin xüsusi çəkisinə görə ən axırıncı yerlərdə dayanırlar. Belə ölkələr nə qədər böyük əhali potensialına malik olsalar da, inkişaf edən, gələcəyi olan ölkələr arasında yer ala bilmirlər. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında isə əhalinin böyük əksəriyyətini gənclər təşkil edir. Bir faktı qeyd edim ki, Naxçıvan Muxtar Respublikasında əhalinin 63 faizindən çoxu 35 yaşa qədər gənclərdən ibarətdir. Bu göstərici bir yandan gənclər diyarı olduğumuza görə qürur hissi doğurursa, digər tərəfdən gənclər siyasətinin icrası istiqamətində qarşıya ciddi vəzifələr qoyur. Vəzifə konkret və aydındır. Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər.

Ali Məclisin Sədri gənclər siyasətinin həyata keçirilməsində aid orqanlara tapşırıqlar verərək demişdir: "Gənclik gələcəkdir. Sağlam gənclik isə həm də sağlam gələcək deməkdir. Bu mənada böyüməkdə olan nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın böyük rolu vardır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən tədbirlərin miqyasını daha da genişləndirməli, gənclər arasında idmanın kütləviliyinin təmin edilməsi məqsədilə federasiyalarla birlikdə səmərəli işbirliyi qurmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yaradılan infrastrukturdan düzgün istifadə etməli, bu gün açılışını keçirdiyimiz Gənclər Mərkəzi naxçıvanlı gəncləri vahid amal – vətənpərvərlik,



dövlətçilik və millilik ruhunda birləşdirən güclü mərkəzə çevrilməlidir. Fond tərəfindən gənclərə məlumat, məsləhət, təlim, peşə seçimi və digər istiqamətlərdə köməklik göstərilməli, elm, təhsil, mədəniyyət və digər sahələrdə fərqlənən istedadlı gənclər üzə çıxarılmalı, onlar haqqında məlumat bazası yaradılmalıdır".

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi məktəblərdə şagirdlərin xalqımız və dövlətimiz üçün yararlı vətəndaş kimi yetişmələrini diqqət mərkəzində saxlamalı, Azərbaycan dili, tarixi və mədəniyyəti ətraflı öyrədilməli və tədris olunmalıdır. Bu gün ali təhsil müəssisələrində təhsil alan gənclər təkcə gələcəyin mütəxəssisləri deyillər. Onlar eyni zamanda xalqımızın sahib olduğu intellektual potensialın daşıyıcılarıdır. Bu potensialı dövlətin və xalqın sağlam gələcəyinə çevirmək, vətənpərvər gənc nəsil yetişdirmək ali və orta ixtisas təhsili müəssisələrinin qarşısında duran əsas vəzifədir. Muxtar respublikanın təhsil ocaqlarında gənclər müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət ruhunda tərbiyə olunmalı, tələbələr ictimai və elmi fəaliyyətə geniş cəlb edilməlidirlər. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi elmi-tədqiqat işlərinə həvəsi olan gəncləri müəyyönləşdirərək tədqiqat işlərinə cəlb etməli, gənc alimlərin fəaliyyəti stimullaşdırılmalıdır.

Yaradıcılıq birlikləri öz fəaliyyətlərini gənclərlə iş sahəsində də gücləndirməli, Naxçıvan Muxtar Respublikası Yazıçılar və Rəssamlar birlikləri gənc şair və yazıçılara, rəssamlara istiqamət verməli, onların yaradıcılıq axtarışlarını diqqət mərkəzində saxlamalıdırlar. Muxtar respublikanın kütləvi informasiya vasitələri gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə xidmət edən teleradio layihələrinin və qəzet materiallarının hazırlanmasını təmin etməli, televiziya, radio və qəzetlərdə xalqımızın milli dəyərlərini və tarixini əks etdirən materiallara üstünlük verilməli, yeniyetmələrin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi işi əməli tədbirlərdə öz əksini tapmalıdır.

Ali Məclisin Sədri demişdir: "Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti hər bir gəncə özünü təsdiq etməsi, yüksək bilik qazanması və dəyərli vətəndaşa çevrilməsi üçün geniş imkanlar açır. Bu imkanlardan səmərəli istifadə edilməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar".***

"Azərbaycan inkişaf edən dövlətdir və təbii ki, müstəqillik dövründə yetişən, onun bəhrəsini görən hər bir gənc də öz fəaliyyəti ilə bu inkişafa dəstək verməli, dövlət müstəqilliyimizin qədrini bilməlidir. Biz bu gün yetişən gəncliyə böyük ümidlə baxırıq. İnanırıq ki, muxtar respublika gəncləri bundan sonra da öz fəaliyyətlərini ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yola sədaqət ruhunda quracaqlar. Bu yol gəncliyin özünü təsdiq və özünü doğrultmaq yoludur", – deyən Ali Məclisin Sədri bu yolda gənclərə uğurlar arzulamış və çıxışını ümummilli lider Heydər Əliyevin gəncliyə xitabən söylədiyi müdrik sözlərlə bitirmişdir: ***"Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək demişdir ki, dövlət gənclər siyasətinin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında məqsədyönlü tədbirlər görülür. Muxtar respublikada yaradılan təhsil, səhiyyə, mədəniyyət və idman infrastrukturu gənc nəslin fiziki sağlamlığının qorunması, yaradıcılıq potensialının artırılması və intellektual inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu gün muxtar respublikamızda, ümumilikdə, 68 mindən artıq yeniyetmə və gənc idmanla məşğul olur. 2013-cü ildə müxtəlif idman növləri üzrə gənc idmançıların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilmiş, onlar dünya çempionatlarında 6, Avropa çempionatlarında 4, beynəlxalq turnirlərdə 6, Azərbaycan birinciliklərində isə 52 medal qazanmışlar. Azad Cabbarov gənclərin asudə vaxtlarının səmərəli təşkili, sağlamlıqlarının qorunması və yüksək səviyyəli təhsil almaları üçün yaradılan şəraitə görə muxtar respublika gəncləri adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin tələbə-gənclər təşkilatının sədri Çilənay Qurbanlı demişdir ki, Naxçıvan Muxtar Respublikasında gənclərə göstərilən qayğı konkret fəaliyyətə hesablanıb. Yaradılmış şərait nəticəsində ümumtəhsil məktəblərimizdə tədrisin səviyyəsi yüksəlmişdir. Hazırda muxtar respublikamızın onlarla gənci dünyanın müxtəlif aparıcı ali təhsil müəssisələrində təhsil alır. Muxtar respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait vardır. Ümummilli liderimizin ideyalarına sədaqət ruhunda tərbiyə olunan gənclər yaradılan infrastrukturdan səmərəli istifadə edir, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikanın inkişafında fəal iştirak edirlər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirmişdir ki, muxtar respublikamızda gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və onların ictimai-mədəni həyatda fəal iştirakı təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu muxtar respublikada gənclərlə bağlı layihələrin və tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlamış, 2013-cü ildə Gənclərin Yay Universitetinin növbəti məşğələləri, "VII Liderlik Məktəbi – Nəqsicahan" layihəsi, gənc jurnalistlər arasında "Naxçıvan – inkişafın 10 ili" mövzusunda yaradıcılıq müsabiqəsi keçirilmişdir. Həmçinin ötən il Naxçıvan Muxtar Respublikasının tanıdılması və Naxçıvan həqiqətlərinin işıqlandırılmasında fəal iştirak etmiş, eləcə də muxtar respublikanın sosial-iqtisadi, ictimai-mədəni həyatında fərqlənən gənclərlə görüşlər təşkil olunmuşdur. Bu gün istifadəyə verilən Gənclər Mərkəzi gənclərin intellektual inkişafı və asudə vaxtlarının səmərəli təşkilinə hərtərəfli şərait yaradacaqdır.

Sonra Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və ictimai-mədəni həyatında fəallığı ilə seçilən gənclər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təltif və hədiyyələri ilə mükafatlandırılmışlar.

Ali Məclisin Sədri 7 gəncə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanını və vəsiqələrini, 33 gəncə isə qiymətli hədiyyələr təqdim etmişdir.

Mükafatlandırılan gənclərdən Əkrəm Hüseynzadə, Ramal Məmişov, Aytən İsmayılova, Elxan Yurdoğlu, Elnur Kəlbizadə və Qəmər Rəhimova gənclərə göstərilən qayğıya və fəaliyyətlərinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan şəhərinin inkişafında yeni mərhələ

***Yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə ikiillik proqram təsdiqləndi. "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" 90 il ərzində muxtariyyətin ictimai, siyasi, mədəni mərkəzi olmuş Naxçıvan şəhərinin qarşıdakı iki il ərzində inkişaf xəttini müəyyənləşdirdi. Bir zamanlar bütün Yaxın və Orta Şərqin əsas siyasi və mədəni mərkəzlərindən biri olmuş, hazırda isə yerləşdiyi Cənubi Qafqaz regionunda ictimai-siyasi fikrin formalaşdığı əsas mərkəzlərdən biri olan Naxçıvan şəhərinin infrastrukturunun inkişaf etdirilməsi və genişləndirilməsi ilə yanaşı, qədim şəhər mədəniyyətinə malik olan Naxçıvanın tarixiliyinin qorunması da proqramda öz əksini tapmışdır.***

Yeni proqramda inzibati binaların tikintisi və təmiri, rabitə sahəsinin inkişafı, şəhərin istilik, su təchizatı və kanalizasiya sisteminin yeniləşdirilməsi, elektrik enerjisi və qaz təchizatının daha yüksək səviyyədə təmin olunması, yol təsərrüfatı və nəqliyyat sahəsinin müasir standartlara uyğunlaşdırılması, yaşıllaşdırma və abadlıq işlərinin davam etdirilməsi, gənclər və idman, təhsil, səhiyyə, mədəniyyət sahələrinin maddi-texniki bazalarının daha da gücləndirilməsi, yaşayış sahələrinin tikintisi və təmiri, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, kənd təsərrüfatının infrastruktur təminatı sahəsində konkret vəzifələr müəyyənləşdirilmişdir.

Proqramda nəzərdə tutulan ilk tədbirlər sırasında Naxçıvan şəhərinə daxil olan kənd və qəsəbələrdə (Qaraçuq, Bulqan, Əliabad və sair) infrastruktur quruculuğu tədbirlərinin həyata keçirilməsi və ya başa çatdırılmasıdır. Bu isə günü-gündən böyüməkdə olan Naxçıvan şəhərinin daxilində gələcəkdə rayonlaşdırmanın aparılmasına və şəhər idarəçiliyinin çoxmərkəzli təşkilinə hesablanmış addımdır. İnzibati ərazi dairələri üzrə nümayəndəliklər üçün binaların, kənd mərkəzlərinin tikintisi yerli inzibati idarəçiliyin daha yaxşı təşkilinə, əhalinin qarşılaşdığı problemlərin operativ həllinə, inzibati orqanlarla əhali arasında ünsiyyətin mobilliyinə təkan verəcəkdir.

Dünyanın ən qabaqcıl ölkələrinin təcrübəsi əsasında həyata keçirilən "Evədək optika" layihəsinin kütləviliyinə nail olunması və Naxçıvan şəhərində reallaşdırılması proqramın rabitə sahəsində müəyyənləşdirdiyi əsas vəzifədir. Qeyd edək ki, bu layihənin reallaşdırılması bir optik lif vasitəsilə telefon, yüksəksürətli internet, videotelefon və İP televiziya adlanan rəqəmli televiziya xidmətinin yüksək keyfiyyətlə istifadəçiyə çatdırılmasını təmin edəcək.

Yuxarıda da qeyd etdiyimiz kimi, şəhər infrastrukturunun qorunması ilə yanaşı, həm də tarixiliyinin qorunması diqqət mərkəzində saxlanılan məsələlərdən olacaq. Naxçıvan şəhərində olan kəhrizlərin həm alternativ, ekoloji cəhətdən təmiz su mənbəyi, həm də tarixi abidə kimi təmiri 2014-2015-ci illər ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən davam etdiriləcək. Məlumat üçün qeyd edək ki, hazırda dünyanın 40-dan çox ölkəsində içməli su probleminin həlli üçün kəhrizlərdən istifadə edilir. 2015-ci ilin sonuna qədər şəhərdə su-kanalizasiya qurğularının tikintisi də tam başa çatdırılmalıdır.

"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın enerji təsərrüfatında edəcəyi əsas yenilik "Smart-kart" tipli elektrik və qaz sayğaclarının quraşdırılmasından ibarət olacaq. Bu tip sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Başqa sözlə desək, bu sistem mobil telefonların kontur sistemi ilə bənzərlik təşkil edir. Hər bir abunəçi əvvəlcədən balansına müəyyən məbləğ yükləyir və müvafiq resurslardan istifadə edir. Bu, bir tərəfdən abonentlərin elektrik enerjisi və təbii qazdan istifadə edərkən xərclərinə nəzarət etmələrinə şərait yaradacaq, digər tərəfdən isə israfçılığın qarşısını alacaq.

Proqramda yol təsərrüfatı və nəqliyyat infrastrukturunda yolların asfalt örtüyünün bərpası və təmiri, ictimai nəqliyyat üçün dayanacaqların quraşdırılması kimi məsələlərlə yanaşı, getdikcə daha çox əhəmiyyət kəsb edən nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması da nəzərdə tutulmuşdur. Proqrama əsasən, 2014-cü ildə İslam Səfərli küçəsində avtomobil parkının tikintisi həyata keçiriləcək, şəhərdaxili nəqliyyat üçün yeni avtobuslar alınacaq. Alınacaq avtobusların beynəlxalq standartlara cavab verməsi isə əsas şərtlərdən biri olacaq.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi 2014-cü ildə Naxçıvançay vadisində parkın tikintisini başa çatdırmalıdır. Şəhərətrafı qəsəbə və kəndlərdə bağçılıq təsərrüfatlarının genişləndirilməsi vəzifəsi isə Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin üzərinə düşür. Yaradılacaq yeni bağçılıq təsərrüfatları təkcə yaşıllaşdırmaya yox, həm də əhalinin müəyyən məhsullara tələbatının ödənilməsinə xidmət etməli – iqtisadi səmərəli olmalıdır.

Qədim Naxçıvan tarixi ənənələri qorumaqla günü-gündən gözəlləşir və gəncləşir. Yeni qəbul edilən proqram çərçivəsində gənclər və idman sahəsində nəzərdə tutulan tədbir – Gənclər Mərkəzinin tikintisi artıq başa çatdırılmışdır. Fevral ayının 1-də müasir standartlara cavab verən Gənclər Mərkəzinin istifadəyə verilməsi Gənclər Günü ərəfəsində muxtar respublika gənclərinə ən böyük hədiyyə oldu. Bu, muxtar respublika əhalisinin tərkibində xüsusi çəkiyə malik olan gənclərə göstərilən diqqət və qayğının nəticəsidir.

Proqramda bir sıra tərbiyə və təhsil müəssisələri üçün yeni binaların tikintisi və ya təmiri də nəzərdə tutulur. Naxçıvan Dövlət Universitetinin Poliklinikasının yenidən qurulması səhiyyə sahəsində ixtisaslı və savadlı kadrların yetişdirilməsinə hesablanmış addımdır. 2014-cü il ərzində Naxçıvan Özəl Universitetində aparılacaq kompleks quruculuq işləri isə bu ali təhsil ocağının nəinki ölkəmizdə, eləcə də Qafqaz regionunda ən müasir infrastruktura malik olan özəl universitetlərdən birinə çevriləcəyini proqnozlaşdırmağa imkan verir.

Yeni proqrama əsasən, qarşıdakı iki il ərzində Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası yenidən qurulacaq, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi üçün yeni bina tikiləcək. Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması 2014-2015-ci illər ərzində də davam etdiriləcək. Naxçıvan şəhərində bitkiçilik və heyvandarlıq sahələri üzrə əczaxanalar yaradılacaq ki, bu da kənd təsərrüfatında sağlam bitkiçilik məhsullarının yetişdirilməsinə və heyvandarlığın sağlam əsaslarla inkişaf etdirilməsinə hesablanmışdır. Dolayısı ilə bu addım muxtar respublikanın ərzaq təhlükəsizliyinə xidmət etməkdədir.

Proqramda mədəniyyət sahəsində 11 quruculuq tədbirinin reallaşdırılması nəzərdə tutulur. Cari ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işləri, Bayraq Meydanı və Fəxri Xiyabanın tikintisi başa çatdırılacaq. Yeniliklərdən biri də Naxçıvançay vadisində Uşaq Əyləncə Mərkəzinin tikintisidir. Kalbalıxan küçəsində isə Şəhidlər Muzeyi tikiləcək ki, burada da həm I Qarabağ müharibəsi dövründə, həm də atəşkəs dövründə Vətən uğrunda şəhid olmuş Azərbaycan övladlarının xatirəsi əbədiləşdiriləcək. Bir sıra musiqi və incəsənət məktəbləri üçün yeni binaların tikintisi, təmiri nəzərdə tutulan proqramda bir zamanlar Araz-Türk Respublikası hökumətinin fəaliyyət göstərdiyi, hazırda isə C.Naxçıvanskinin ev-muzeyi yerləşən binanın yenidən qurulması da nəzərdə tutulur.

Naxçıvan şəhərində artıq ənənəvi hal alan yaşayış sahələrinin təmiri və tikintisi səkkiz ünvanda aparılacaq. Kiçik və orta sahibkarlığın inkişafına göstərilən dəstək isə Naxçıvan şəhərində yaşayan insanların sosial-rifah halının yüksəlməsinə, yeni iş yerlərinin yaradılmasına səbəb olacaq. 2014-cü ilin ölkəmizdə "Sənaye ili" elan edilməsi proqrama da təsirsiz ötüşməmişdir. Proqramda Naxçıvan şəhərində yeni Sənaye Kompleksinin tikintisinin dövlət tərəfindən dəstəklənməsi də nəzərdə tutulmuşdur. Qarşıdakı iki il ərzində Naxçıvan şəhərində melamin lövhə, laminat örtüklü iş masası lövhəsi, kafel və metlax, köynək, uşaq bezi, diş pastası, unlu-qənnadı məhsulları, silikon yastıq, yorğan və yaylı döşək istehsalı və bir çox digər yeni istehsal sahələrinin yaradılmasının dəstəklənməsi də nəzərdə tutulur ki, bütün bu işləri Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi həyata keçirəcəkdir. Bundan başqa, "Naxçıvan Xalça" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsinə dəstək verilməsi və Naxçıvan "Alt Trikotaj" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin bərpası da proqramın məqsədləri sırasındadır.

Şəhərətrafı qəsəbə və kəndlərdə kənd təsərrüfatı infrastrukturunda da 2014-2015-ci illər ərzində əsaslı dəyişikliklər və yeniliklər olacaq. Bu tədbirlər çərçivəsində Naxçıvan şəhərində Nəzarət-Toksikologiya, Bitkilərin Karantin Ekspertizası və Torpaq Analizləri laboratoriyalarının, ixtisaslaşdırılmış "Fermer Mağazası"nın və "Yaşıl Market"in yaradılması da nəzərdə tutulur.

**Beləliklə, proqram günü-gündən dəyişən və inkişaf edən Naxçıvan şəhərinin yeni mərhələyə qədəm qoymasına şərait yaradacaq. Bu isə "İslam mədəniyyəti"nin paytaxtı statusunu təhvil alacaq, bəzilərinin "Qafqazın San-Fransiskosu", digərlərinin isə ictimai-siyasi fikrin formalaşmasındakı əhəmiyyətinə görə "Qafqazın Strasburqu" adlandırdıqları Naxçıvan üçün vacibdir.**

**Elnur KƏLBİZADƏ**

# Ötən ilin yekunları müzakirə edilir



*Fevralın 3-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis general-leytenantı Əhməd Əhmədov məruzə ilə çıxış edərək bildirmişdir ki, 2013-cü il muxtar respublikada "Heydər Əliyev ili" elan edilməsi daxili işlər orqanları qarşısında da ciddi məsuliyyət qoymuş və tələbkarlığı artırmışdır. Buna görə də daxili işlər orqanları tərəfindən ötən il cinayətkarlığa qarşı mübarizədə və ictimai təhlükəsizliyin təmin olunmasında qətiyyətli addımlar atılmışdır. Həyata keçirilən profilaktik tədbirlər nəticəsində hesabat dövründə əvvəlki illərlə müqayisədə cinayətlərin dinamikasında azalma davam etmiş, muxtar respublikada cəmi 16 cinayət hadisəsi qeydə alınmışdır.

Qeyd olunmuşdur ki, 2013-cü ildə baş vermiş cinayətlərin açılması 100 faiz təmin edilmişdir. Bununla yanaşı, hesabat dövründə keçmiş illərdən bağlı qalmış 3 cinayət işinin açılması təmin edilmiş və icraatına müxtəlif əsaslarla xitam verilmişdir. İcraatda olan cinayət işlərindən 8-nin istintaqı tamamlanaraq ittiham aktı ilə məhkəməyə göndərilmişdir. Bir cinayət işinin icraatı dayandırılmış, 1-i isə aidiyyəti üzrə istintaqa göndərilmişdir. Transmilli mütəşəkkil cinayətlərdən olan narkotrafikə və insan alverinə qarşı mübarizə tədbirləri daha da gücləndirilmişdir. Aparılmış birgə əməliyyat-axtarış tədbirləri nəticəsində 8 kiloqramdan artıq müxtəlif narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmışdır.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsindən də danışan nazir qeyd etmişdir ki, texniki sistemlərin tətbiqi və inzibati tənbehlərin sərtləşdirilməsi hadisələrin qarşısının alınmasına müsbət təsir göstərmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qəzaların sayı 9-a qarşı 7 olmaqla, 2 fakt azalmışdır. Qeyd olunan dövrdə qanunsuz saxlanılan silahların yığılması istiqamətində həyata keçirilən tədbirlər də davam etdirilmiş, vətəndaşlar tərəfindən 138 ədəd odlu silah, xeyli sayda döyüş sursatı və hərbi ləvazimat könüllü olaraq polis orqanlarına təhvil verilmişdir.

Ötən il nazirliyin Pasport-Qeydiyyat və Miqrasiya Şöbəsinin də fəaliyyəti qənaətbəxş olmuşdur. Şöbə tərəfindən 19 min 921 nəfərə ümumvətəndaş pasportu, 47 min 469 nəfərə isə şəxsiyyət vəsiqəsi verilmişdir.

Bildirilmişdir ki, Daxili Qoşunların Naxçıvan Alayının maddi-texniki bazasının möhkəmləndirilməsi və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüşdür.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

Sonda nazirliyin 2014-cü il üçün tədbirlər planı təsdiq olunmuşdur.

İclasa daxili işlər naziri, polis general-leytenantı Əhməd Əhmədov yekun vurmuşdur.

*Babək Rayon İcra Hakimiyyətində 2013-cü ildə rayonun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.*

Müşavirəni giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq ötən ilin yekunları və qarşıda duran vəzifələr haqda məruzə etmişdir.

Qeyd edilmişdir ki, "Heydər Əliyev ili"ndə Babək rayonunda tikinti-quruculuq işləri geniş vüsət almış, iqtisadi göstəricilər yüksəlmişdir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 5 mart 2013-cü il tarixli Sərəncamına əsasən, 13 yaşayış məntəqəsini əhatə edən 25,6 kilometr uzunluğunda Hacıvar-Vayxır-Sirab avtomobil yolunun çəkilişi başa çatdırılmışdır. Babək qəsəbəsində rayon Mərkəzi Xəstəxanası, Uşaq-Gənclər Şahmat Məktəbi, Tarix-Diyarşünaslıq Muzeyi, rayon Qeydiyyat Şöbəsi və Notariat Kontoru üçün binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bundan başqa, qəsəbədə 1941-1945-ci illər müharibəsində həlak olanların və Azərbaycan Vətən müharibəsi şəhidlərinin xatirəsinə abidə ucaldılmış, qəsəbənin avtomobil yolları yenidən qurularaq 6,4 kilometr uzunluğunda yola asfalt örtük salınmış, işıqlandırma dirəkləri yenilənmiş, Şəkərabad kəndində kənd mərkəzi tikilmiş, kənd tam orta məktəbi əsaslı təmir edilmişdir. Qoşadizə kəndində Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün



yeni inzibati bina və texniki park tikilib istifadəyə verilmişdir. Çeşməbasar kəndində kənd mərkəzi, həkim ambulatoriyası, o cümlədən 234 şagird yerlik tam orta məktəb üçün binalar tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir. Bu tikinti-quruculuq işləri rayonun digər kəndlərində də yüksək keyfiyyətlə həyata keçirilmişdir.

Sonra rayon Maliyyə Şöbəsinin müdiri Kamal Cabbarov, Qaz İstismarı İdarəsinin rəisi Sədi Hüseynov, Elektrik Şəbəkəsinin direktoru Kazım Xudiyev və Rabitə İdarəsinin rəisi İsgəndər Qasımov çıxış edərək 2013-cü il ərzində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmışlar.

Sonda işdə buraxılmış nöqsanlar və onların aradan qaldırılması yolları ətraflı müzakirə olunmuş, işdə buraxdıqları nöqsanlara görə idarə, müəssisə və təşkilatların rəhbərlərinə xəbərdarlıqlar edilmişdir.

**Xəbərlər şöbəsi**

# Elektron lövhələr

## “Ağıllı” lövhələrdən məktəblərimizdə necə istifadə olunur?

***Bu gün muxtar respublikamızda ümumtəhsil məktəblərinin elektron lövhə ilə təchizatına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində məktəblərimizdə müasir informasiya-kommunikasiya texnologiyaları avadanlıqları quraşdırılıb, internet şəbəkəsinə çıxış təmin olunub. Son illərdə muxtar respublikanın ümumtəhsil məktəblərində 551 elektron lövhə quraşdırılıb. Bəs elektron lövhə nədir?***

Oxucularımıza elektron lövhə və bu lövhədə dərslərin keçilməsinin əhəmiyyəti barədə daha ətraflı məlumat vermək üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət etdik. Nazirliyin sektor müdiri Rəşad Əlizadə bildirdi ki, dərsdə elektron lövhənin tətbiqi müəllimlə şagird arasında informasiya mübadiləsinin səmərəliliyinin yüksəldilməsinə geniş imkan yaradır. Qeyd etdi ki, elektron lövhə adi lövhə, hətta proyektor qoşulmuş kompüterlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Elektron lövhə müəllimə bir çox illüstrativ vasitələrdən geniş (şəkil, xəritə, video və sair) istifadə imkanı verir. Bu da şagirdlərin tədris materiallarını daha yaxşı mənimsəmələrinə kömək edir. Çoxlu sayda funksiyalara malik olan interaktiv elektron lövhə həm müəllimlərin, həm də şagirdlərin yaradıcılıq potensialının daha da artırılmasına şərait yaradır. Eyni zamanda keçilən dərslərdə interaktiv elektron lövhələrin tətbiq edilməsi müasir texnologiyaların tətbiqi ilə təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir.

Elektron lövhə ilə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və nəticə etibarilə, şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışlarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır.

Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. “Ağıllı” lövhə həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və sair qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Elektron lövhənin tətbiqi ilə şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini “möcüzəli” ekranda izləyə bilirlər. Bu isə şagirdlərin nəzəri-metodoloji biliklərini, praktik bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, uşaqların yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərketmə qabiliyyətini daha da artırır.

“Ağıllı” lövhənin bir üstün cəhətini də xüsusi qeyd etmək lazımdır ki, onun üzərində aparılan bütün əməliyyatları, dərsin gedişini, hazırlanmış şablonları, modelləri kompüterin daimi yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək olar. Belə imkanlar müəllimin dərsə hazırlaşmaq üçün sərf etdiyi vaxta qənaət etməyə, materiallar əsasında tədris resursları bazası yaratmağa və müxtəlif səbəbdən dərs buraxan şagirdlər və ya təlimdən geri qalan uşaqlar üçün mövzunun qısa müddətdə yenidən izah edilməsinə şərait yaradır. Belə ki, şagird iştirak edə bilmədiyi dərsin elektron variantı ilə sonradan tanış ola və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana qədər təkrar-təkrar kompüterdə izləyə bilirlər. Yaxın keçmişi nəzərdən keçirsək, görərik ki, əvvəlki dövrlərdə müəllim keçdiyi mövzunu bütün şagirdlərdən eyni dərəcədə ala bilmirdi. Çünki müəllim dərsin çox hissəsini izah edərək keçirirdi. Bu gün informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bütün fənlərin tədrisinə ənənəvi yanaşmanı dəyişib. Müasir dövrdə interaktiv lövhələrdən riyaziyyat, təbiət fənləri və xarici dillərin tədrisində daha geniş istifadə etmək mümkündür. Həmçinin şahmatın tədrisində də elektron lövhələrdən geniş istifadə edilməsi səmərəlidir. Elektron lövhələrin tərkibinə daxil olan tədrislə bağlı xüsusi proqram təminatları şahmat dərslərinin daha faydalı və maraqlı keçilməsinə imkan verir.

Bəs muxtar respublikamızda elektron lövhələrdən necə istifadə olunur? Bunun üçün qısa araşdırma apardıq.

Aydın oldu ki, məktəblərimizin heç də hamısında elektron lövhələrdən səmərəli istifadə olunmur. Bəzi müəllimlər elektron lövhə ilə iş prosesini öyrənməyə maraqlı deyillər. ***Elə götürək müəllimi olduğum Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbi. Hər gün bu məktəbdə olduğum üçün buradakı vəziyyəti açıq-aydın görə bilirəm. Məktəbin elektron sinifli otaqları yoxlamadan yoxlamaya açılır. Məsələn, ötən ilin dekabr ayında məktəbdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin birhəftəlik yoxlaması zamanı bir neçə dərs elektron lövhədə keçildi. Ancaq yoxlama başa çatdıqdan sonra elektron lövhəyə üz tutan olmadı. Bir də televiziya üçün keçilən açıq dərsləri qeyd etməliyəm. Bunların hamısı formal xarakter daşıyır. Sözügedən məktəbdə bir-iki müəllimdən başqa, digər müəllimlər dərslərini elektron lövhə ilə keçmirlər.*** Yazını hazırlayarkən bir gün məktəbdə müşahidə apardım. Elektron lövhəli sinfin qapısını açan olmadı. Elə siniflər var ki, 2013-2014-cü tədris ilinin bu gününə qədər heç elektron lövhəli sinifdə olmayıblar.

***Əliabad qəsəbə tam orta məktəbindəki vəziyyət 12 nömrəli məktəbdən heç də geri qalmır. Elektron lövhəli siniflərin qapısı bağlı idi.*** Ola bilər ki, həmin gün dərslərin elekton lövhədə keçilməsinə ehtiyac olmasın. Bunun üçün siniflərin birində olmaq istədik. Dedik, görək, həmin sinif hansı dərsləri elektron lövhədə keçib? Təəssüf ki, nə müəllimi, nə də şagirdləri sinifdə tapa bildik. Maraqlıdır ki, nə məktəbin direktoru, nə də dərs hissə müdiri dərs vaxtı şagirdlərin harada olduqlarını bildilər.

***Kəngərli rayonunun Qabıllı kəndində də vəziyyət qənaətbəxş deyildi. Elektron lövhəli sinif boş idi.*** Dərslərdən birində iştirak etdik. Olduğumuz sinif, ümumiyyətlə, elektron lövhəli sinifdə olmayıb. Həmin sinfə cəbr fənnini tədris edən Paşa Heydərov deyir ki, elektron lövhə ilə divarın tarazlığı pozulduğu üçün dərsləri elektron lövhədə keçə bilmirik. Maraqlıdır ki, məktəb rəhbərliyi bu işə niyə biganə qalıb?

Araşdırmalarımızı ***Babək rayonunun Çeşməbasar kənd tam orta məktəbində davam etdirdik. Burada da elektron lövhəli sinfin qapısı bağlı idi.*** Siniflərin birində olduq. Ədəbiyyat dərsi idi. Öyrəndik ki, şagirdlər ədəbiyyat fənninin heç bir dərsini elektron lövhədə keçməyiblər. Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edən Könül Babayeva bunun səbəbini vəsaitin olmaması ilə izah edir.

Burada bir haşiyəyə çıxmaq istəyirəm. Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında hazırlanan Azərbaycan tarixi, biologiya, insan anatomiyası, kimya, fizika fənləri üzrə tədris CD-ləri, coğrafiya və riyaziyyat fənləri üzrə elektron ensiklopediya CD-ləri muxtar respublikanın bütün ümumtəhsil məktəblərinə şagird kontingenti nəzərə alınaraq verilib. Daha peşəkar və təcrübəli müəllimlər məktəbdə olmayan bəzi fənlər üzrə mövzuya aid interaktiv testləri və tədris proqramlarını internet üzərindən götürərək istifadə edirlər. Hətta bir çox müəllimlər bu işə şagirdləri də cəlb edirlər. Hər şeyi dövlətdən gözləmək düzgün deyil. Yuxarıda qeyd etdiyimiz Çeşməbasar kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi elektron lövhədə dərs keçməyə maraqlı olsa idi, bunun üçün internet vasitəsilə vəsaitlər əldə edə bilərdi. Özü də çox asan. Məsələn, VIII siniflərin ədəbiyyat proqramına “Kitabi-Dədə Qorqud” dastanı salınıb. Şagirdlər elektron lövhə vasitəsilə “Dədə Qorqud” filminə baxa bilərlər. Şagirdlər filmə baxmaqla dastanda olan surətlərin adlarını, orada baş verən hadisələri daha yaxşı yadda saxlaya bilərlər. Yaxud da tədris olunan ədiblərin həyat və yaradıcılığı ilə bağlı internetdə onlarla sənədli filmə rast gəlmək mümkündür. Rastlaşdığımız faktlar göstərir ki, müəllimlərimiz müasirliklə ayaqlaşmaqda ləngiyirlər.

Onu da xüsusilə vurğulayım ki, muxtar respublikada elektron lövhədən səmərəli istifadə edən məktəblərimiz də az deyil. Onlara misal olaraq, Naxçıvan şəhər 2, 3, 5, 7, 14 nömrəli və Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəblərini göstərmək olar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən bildirdilər ki, müəllimlərin elektron lövhələrdən istifadə qaydalarını öyrənmələri məqsədilə təlim kursları təşkil edilir. Həmçinin elektron lövhələrdən və elektron dərs vəsaitlərindən istifadənin tətbiqi ilə bağlı ümumtəhsil məktəblərində seçmə yolla monitorinqlər aparılır. Nazirlik tərəfindən ümumtəhsil məktəblərində informasiya-kommunikasiya texnologiyalarının imkanlarından faydalı istifadənin təmin olunmasına və dərs zamanı müasir əyani vasitələrin tətbiqi vəziyyətinə dair monitorinqlər aparılarkən bir çox məktəblərimizdə kabinə rəhbərlərinin və ya fənn müəllimlərinin praktik biliklərinin zəif olması hallarına rast gəlinmişdir.

Qeyd edək ki, yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə də bu məsələyə toxunulmuşdur. Vurğulanmışdır ki, dərslərin tədrisində əyani vəsaitlərdən istifadə səviyyəsi aşağıdır, müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından istifadələri qənaətbəxş deyildir.

***Yuxarıda da qeyd etdiyimiz kimi, son illər muxtar respublikada məktəblərin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı diqqətdə saxlanılan məsələlərdəndir. Yeni tikilən məktəb binalarındakı elektron lövhəli siniflər qapısı bağlı olsun deyə, yaradılmır. Məqsəd ondan ibarətdir ki, şagirdlər hərtərəfli biliklərə yiyələnsin, milli dəyərlərə və dünyagörüşə malik vətənpərvər gənclik yetişdirilsin. Buna görə də pedaqoji kollektivlərin qarşısında mühüm vəzifələr durur. Bu vəzifələri layiqincə yerinə yetirmək üçün hər bir müəllim öz işini günün tələbləri səviyyəsində qurmağı bacarmalıdır.***

**Sara ƏZİMOVA**

Afişa

# Teatrlarımız yeni tamaşalarla teatrsevərlərin görüşünə gələcək

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı repertuarına bu il maraqlı əsərlərin səhnələşdirilməsini daxil etmişdir. Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə əlaqədar şair-dramaturq Həsənəli Eyvazlının Naxçıvanın muxtariyyət qazanmasının çətin, mürəkkəb tarixini əks etdirən “Araz sahilində doğan Günəş” əsəri əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim olunacaq.

Tamaşaçılar səhnələşdirilmiş əsər boyu Naxçıvan əhalisinin muxtariyyət uğrunda mübarizəsinin şahidi olacaqlar.

Teatr bu il şair-publisist Taleh Həmidin “Yəhya bəy Dilqəm” pyesini də səhnələşdirəcəkdir. Dilqəm adı, “Dilqəmi” saz havası çoxdan məlum olsa da, çoxları bu sənətkar haqqında o qədər də geniş məlumata malik deyillər. Aşıq Dilqəm kimi tanınan Yəhya bəyin həyat və yaradıcılığından bəhs edən T.Həmidin “Yəhya bəy Dilqəm” pyesində hadisələr XIX əsrdə Şəmkir mahalında baş verir. Tamaşada dövrün digər hadisələri – çar Rusiyası ağalığına qarşı mübarizə, milli dəyərlərin yaşadılması və xalqın bu uğurda mübarizəsi ön plana çəkilmişdir.

Bu il teatr ilk dəfə olaraq Norveç dramaturqu Henrix İbsenin (1828-1906) yaradıcılığına müraciət edərək ədibin “Kuklalar evi” (1879) dramını səhnəyə qoyacaqdır. H.İbsen dramaturgiyasını sevdirən bu pyes müəllifi Avropa dramaturgiyasında sosial-psixoloji dramın banisi kimi tanıtmışdır. Əsərdə cəmiyyətdə qadının mövqeyi, qadın azadlığı, ailə xoşbəxtliyi, yalan və həqiqət kimi məsələlər ön plana çəkilməklə yüksək bəşəri problemlər qaldırılır. Tamaşaçılar vəkil Helmer və onun arvadı Noranın simasında bir ailənin həyat dramı ilə tanış olacaqlar.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının repertuarı da maraqlı əsərlərlə zəngin olacaqdır. Teatr bu il Gülnarə Kərimovanın “Nəğməkar bülbül”, Feyruz Məmmədovun “Meşədə döyüş”, Zaur Vedilinin “Təpəgöz”, Əli Səmədlinin “Meşədə konsert” əsərləri əsasında hazırlanacaq səhnə əsərlərini balaca tamaşaçılara təqdim edəcəkdir. Qədim və zəngin şifahi xalq ədəbiyyatımızdan bəhrələnərək yazılmış bu səhnə əsərlərində alleqorik şəkildə bir sıra vacib məsələlərə toxunulur. İnsanların arzuları, inam, dostluq, mərhəmət kimi dəyərli keyfiyyətlər sözügedən əsərlərdə təbliğ olunur. Eyni zamanda əsərlərdə təkəbbürlük, laqeydlik, biganəlik, kobudluq kimi mənfi xüsusiyyətlər tənqid edilir.

**Əli RZAYEV**

# Naxçıvanlı gənc rəssamlar Bakı şəhərində yaradıcılıq sərgisində iştirak etmişlər

Yanvarın 29-da Xəzər Universitetinin, “Vienna Art Center”in və “Yves Rocher” Fransa şirkətinin birgə dəstəyi, “Dirçəliş” Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə 2 fevral – Gənclər Günü ilə əlaqədar Xəzər Universitetində Azərbaycanın gənc rəssamlarının əsərlərindən ibarət “Kompromis” adlı sərgi keçirilmişdir.

Sərginin açılışında çıxış edən Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov müasir incəsənətimizdə potensial gənclərin kifayət qədər olduğunu, onların üzə çıxarılmasında bu kimi sərgilərin keçirilməsinin vacibliyini bildirmişdir. Avstriya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiç çıxış edərək Azərbaycan incəsənətinə heyran olduğunu, əsasən də, gənc azərbaycanlı rəssamların əsərlərinin xüsusi maraq doğurduğunu vurğulamışdır.

Sərgidə 16 rəssamın 64 rəsm tablosu nümayiş olunmuşdur. Onlardan həmyerlimiz Tural Həsənli və Bəhruz Quliyevin əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Nümayiş olunan əsərlər rəngkarlıq və qrafikanın müxtəlif sahələri üzrə təqdim edilmişdir. Sərginin təşkilində əsas məqsəd azərbaycanlı gənc rəssamların istedadlarını nümayiş etdirməkdən, onların yaradıcılıq imkanlarının genişlənməsinə şərait yaratmaqdan ibarət olmuşdur.

**Xəbərlər şöbəsi**

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin baş direktoru Məmmədtağı İbrahimov və birliyin kollektivi iş yoldaşları Elşad Cəfərova, atası
**FƏXRƏDDİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsi dekanlığından İman Cəfərov və Rəsul Bağırov Tibb fakültəsinin dekanı Bəhruz Məmmədova, əzizi
**YUSİFİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin baş həkimi Alı Əliyev və mərkəzin kollektivi Bəhruz və Məhbubə Məmmədovlara, əzizləri
**YUSİFİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin kollektivi iş yoldaşları Sahib Quliyevə, qardaşı
**NAHİBİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 130